Xalq qəzeti .- 2022.- 15 sentyabr.

# Azərbaycan Ordusu düşmən təxribatlarının qarşısını yüksək peşəkarlıqla aldı

***Ermənistan ordusu bu günlərdə növbəti dəfə qalib Azərbaycan Ordusunun əlinin dadını gördü. Sentyabrın 12-də gecə saatlarında gizlicə ordu hissələrimizə qarşı tələ qurmağa çalışan, dərələrdə mina basdıraraq yeni təxribat törətməyə cəhd edən Ermənistan ordusu yenə də darmadağın edildi, bir neçə hərbi hissəsi, yüzlərlə hərbi texnikası və canlı qüvvəsi ordu hissələrimiz tərəfindən məhv edildi. Azərbaycanın qüdrətli ordusu qarşısında heç nə edə bilməyən Ermənistan baş naziri Nikol Paşinyan yenə də telefondan yapışıb dünya liderlərinə yalvarmağa başladı. Amma bu dəfə də onun harayına heç kim çatmadı.***

Təbii ki, Ermənistanın 2020-ci ilin 10 noyabrından sonra törətdiyi bütün təxribatlar kimi, 12 sentyabr təxribatının qarşısı da ordumuz tərəfindən çox yüksək səviyyədə, qətiyyətlə alındı. Ermənistanın İkinci Qarabağ müharibəsindən sonra onsuz da özünə gələ bilməmiş hərbi qüvvələri ağır ağır zərbə aldı. Təəssüf ki, bütün bunlar Ermənistana dərs olmur. Bu ölkə öz əhalisini döyüş meydanında qırdırmaqdan əl çəkmir. Bax, buna görədir ki, sentyabrın 13-dən bəri erməni hökumətinin qarşısı əsgər valideynləri ilə doludur. Onlar balalarının Qarabağda Azərbaycan əsgərinin əlində ölməsini istəmirlər. Amma Paşinyan da, digər siyasi partiya funksionerləri də, Saqatelyan, Vardanyan və başqaları kimi diletantlar da öz qisas niyyətləri uğrunda milləti qırğına verməkdən əl çəkmirlər.

Azərbaycan Ordusu isə son illərdə kifayət qədər güc toplayıb. Ölkədə Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə ordu quruculuğu sahəsində böyük uğurlar qazanıb. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1993-cü ildən etibarən başlanmış nizami ordu quruculuğu prosesi 2020-ci ilin noyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistan ordusunun darmadağın edilərək torpaqlarımızdan qovulması ilə başa çatıb. Təbii ki, ərazilərimizin böyük hissəsinin 30 ildən bəri Ermənistanın işğalı altında olması ölkəmizi Silahlı Qüvvələrimizi ciddi şəkildə möhkəmləndirməyə vadar edib. Ordumuz bu illər ərzində ən müasir silahlarla təchiz edilib, ən peşəkar səviyyədə hərbi təlimlərdə bərkiyib. Nəhayət, XXI əsrin müharibəsini böyük rəşadətlə başa vurub, dünyanın ən yaxşı orduları sırasında özünə yer tutub.

Ordumuz hələ 2016, 2018 və 2020-ci illərdə erməni ordusuna öz gücünü göstərmişdi. Ali Baş Komandan İlham Əliyev bununla bağlı öz nitqlərindən birində bildirmişdi ki, Aprel və Naxçıvan qələbələri ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu gücləndirir: “2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Naxçıvan əməliyyatında işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun böyük mənəvi əhəmiyyəti var. Həmin bu bayraqlar bu gün bu hərbi paradda, "Azadlıq" meydanında nümayiş etdiriləcək. Bu bayraqlar döyüş bayraqlarıdır. Bu bayraqlar işğaldan azad edilmiş torpaqlarda dalğalanır və hərbi parad üçün bura gətirilib. Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayraqları "Azadlıq" meydanına gətiriləcək və hərbi paradda nümayiş etdirləcək. Biz bu müqəddəs günü yaxınlaşdırırıq”.

Biz bu müqəddəs günlərin də canlı şahidi olduq.



Bunu Ermənistanda nəzərə almaq, Azərbaycanın uzatdığı sülh əlini sıxmaq, silahı yerə qoyub əməkdaşlığa başlamaq əvəzinə, rəsmi İrəvan yeni-yeni təxribatlara əl atır və və son nəticədə Azərbaycan Silahlı Qüvvələrinin sərt cavabı ilə qarşılaşır. Son hadisə ilə bağlı Azərbaycanın Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən, minaatanlardan intensiv atəşə tutulub. Nəticədə Azərbaycan ordusunun şəxsi heyəti arasında itkilər olub, hərbi infrastruktura ziyan dəyib. Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısını almaq, hərbi qulluqçularımızın, o cümlədən, Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunmuş bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb.

Amma Ermənistan tərəfindən yayılan məlumatlarda qeyd olunur ki, guya Azərbaycan Ordusu mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alıb. Azərbaycan Müdafiə Nazirliyi bu məlumatların həqiqəti əks etdirmədiyini, Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiya olduğunu bəyan edib. Qeyd olunub ki, Ermənistanın təxribatlarına cavab olaraq əks tədbirlər lokal xarakter daşıyaraq atəş nöqtəsi olan legitim hərbi hədəflərə qarşı yönəlib: “Cavab tədbirləri kiçikmiqyaslı və hədəflənmiş xarakter daşıyaraq Azərbaycan sərhədlərinin təhlükəsizliyini təmin etmək və Ermənistanın təxribatlarına son qoymaq məqsədi daşıyır. Mülki obyektlərin və günahsız insanların hədəfə alınması Ermənistan silahlı qüvvələrinin tətbiq etdiyi standart hərbi metodologiyadır. 30 illik işğal dövründə və 44 günlük Vətən müharibəsində məhz Ermənistan tərəfi ballistik raketlər və kasetli bombalarla qəsdən və məqsədyönlü şəkildə Azərbaycan şəhərlərini və mülki əhalisini hədəfə alırdı”.

Müdafiə Nazirliyinin sonrakı açıqlamalarından birində isə bildirilir: “Ermənistan kütləvi informasiya vasitələri və sosial media seqmentində Azərbaycanın Ermənistanın ərazisinə müdaxilə etməsi barədə yayılan xəbərlər cəfəngiyyatdan başqa bir şey deyildir. Regionda təcavüzkar və işğalçı dövlət Ermənistan Respublikasıdır. Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının Azərbaycanın Qarabağ iqtisadi zonasında mövcudluğu hələ də davam edir. Azərbaycan Ordusu Ermənistanın təxribatına cavab olaraq lokal əks tədbirlər həyata keçirir və atəş nöqtələri neytrallaşdırılır”.

Azərbaycan Müdafiə Nazirliyi Mətbuat Xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov da sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələri bölmələrinin genişmiqyaslı təxribatı barədə keçirdiyi brifinqdə bəyan edib ki, məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Elə buna görədir ki, artıq sonuncu təxribat nəticəsində ölən erməni əsgərlərin yaxınları İrəvanda parlamentin binası yaxınlığında Nikol Paşinyanın istefası tələbi ilə aksiya keçirməyə başlayıblar. Onlar baş verənlərdə Paşinyanın rəhbərlik etdiyi hakimiyyəti ittiham edirlər. Son döyüşlərdə verilmiş yeni qurbanların yaxınlarına 44 günlük müharibədə həlak olanların doğmaları və onlara dəstək verən vətəndaşlar da qoşulublar. Onlar deputatlardan Ermənistanın baş naziri Nikol Paşinyana etimad göstərməməyi tələb edirlər. Lakin hökumət dəbilqəli və qalxanlı polisləri parlament binasının yerləşdiyi Dəmirçyan küçəsinin girişini bağlamağa göndərib.

“Müstəqillik Uğrunda Hərəkat”ın rəhbəri Edqar Qazaryan bildirib ki, aksiya iştirakçıları deputatlara öz təkliflərini veriblər. Daha sonra aksiya iştirakçıları binaya daxil olmaq istəyiblər.

Ümumiyyətlə, Ermənistan revanşist niyyətindən əl çəkməyincə vəziyyət bu cür acınacaqlı olacaq, məğlubiyyət ardınca məğlubiyyət yaşayacaq. Bunu beynəlxalq siyasi ekspertlər də təsdiq edirlər. Bu cür təxribatların əsl səbəbi də ölkədə qisas həvəsinin güclü olmasıdır. Bu, Ermənistana baş verənlərdən nəticə çıxarmağa, sülhə gəlməyə imkan vermir”.

Amma başqa yol yoxdur. Ermənistan Qarabağda qalmış silahlı tör-töküntülərini oradan çıxarmaq, Qazaxın 7 kəndini, Naxçıvandakı Kərki kəndini azad etmək, Zəngəzur dəhlizini açmaq, sərhədlərin delimitasiya və demarkasiyasını həyata keçirmək, Azərbaycanla sülh müqaviləsi imzalamaq barədə öhdəliklərini yerinə yetirməlidir. Axı Paşinyan 10 noyabr 2020-ci ildə bu öhdəliklərin yer aldığı üçtərəfli Bəyanata imza atıb. İndi bu öhdəliklərin icrasından qaçmaq mümkün deyil. Üçtərəfli Bəyanat tam yerinə yetirilməyincə İrəvan Azərbaycan Ordusunun yeni-yeni zərbələrinə hazır olmalıdır.

***Paşa ƏMİRCANOV, “Xalq qəzeti”***